# VASİF ADIGÖZƏLOVUN FORTEPİANO VƏ XALQ ÇALĞI ALƏTLƏRİ ORKESTRİ ÜÇÜN KONSERTİNDƏ MİLLİ XÜSUSİYYƏTLƏRİN TƏZAHÜRÜ

*Musiqi tarixindən bizə məlumdur ki, həmişə bəstəkarlar hər hansı bir formaya onun klassik ənənələrinə zidd olan və ya kənar olan yeniliklər gətirməyə meyl etmişlər. Hələ Bethovendən başlayaraq sonata-simfonik silsilə təkmilləşmə prosesi keçmiş, opera janrı isə yarandığı gündən daima yeniləşməyə məruz qalmışdır. Bu da təbii bir prosesdir, çünki həyatın hər bir sahəsi zamanın tələbinə uyğun olaraq dəyişməyə və inkişaf etməyə meyllidir. Bəzən bu dəyişmə təkamülə, bəzən də tənəzzülə aparır. Ümumi musiqi aləmində baş verən bu prosesin içində isə hər bir xalqın ayrılıqda musiqisində də formaya, ənənələrə yeni baxış mövcuddur. Azərbaycan musiqisi bu cəhətdən daha fəaldır. Çünki musiqi aləmində baş verən hər hansı bir yeniliyə həssaslıq bəstəkarlarımıza xas olan keyfiyyətdir. Qara Qarayev öz tələbələrinə daima bunu tövsiyə edərdi.*

Digər bəstəkarlarımız kimi Vasif Adıgözəlov da öz yaradıcılığında yeniliyə meyl edən bəstəkardır. "Fortepiano və xalq çalğı alətləri orkestri üçün konsert" bu yeniliyin ən yaxşı nümunəsidir.

Avropa və Şərq ənənələrinin sintezi məsələsi də burada eyni zamanda alətlərin qarşılıqlı münasibəti zəminində həll olur. Yalnız bir məqamı qeyd etmək lazımdır ki, əsər fortepiano və orkestr üçün yazılmış olsa da, əsas fərq orkestrin simfonik yox, xalq çalğı alətləri üçün olmasıdır. Fortepiano musiqisi sahəsində bu, yenilikdir, çünki dünya fortepiano musiqisində bu cür hal olmamışdır. Əsərin ilk özəlliyi də buradan irəli gəlir. Bu cür konsert F.Əmirov və A.Babayevin birgə yazdıqları konsertdə ilk nümunəsini tapmışdır.

Bundan başqa xalq çalğı alətləri üçün yazılmış konsertlərə xas musiqi dili, ritm quruluşu, mövzu xarakteri, ümumi quruluş diqqəti cəlb edir. Konsertə ilk nəzər saldıqda Azərbaycan bəstəkarlarının tar üçün yazılmış konsertləri yada düşür. Sadəcə bu dəfə solo vəzifəsi xalq çalğı alətlərindən birinə yox, fortepianoya verilir. Hətta hissələrin ritmik və melodik quruluşu, fortepiano üçün nəzərdə tutulan musiqi partiyası, müşayiət və s. sırf milli alətlər və onlarda ifa olunan musiqi xarakterini yaradır.

Bu konsertdə I konsertə nisbətən daha çox Üzeyir Hacıbəyov ənənələri davam etdirilir. Hətta I hissənin əvvəlində orkestrin müşayiəti «Koroğlu» operasından üvertürada olduğu kimi ritm əsası və melodik intonasiyası var. Eyni zamanda əvvəldə qeyd etdiyim kimi burada fortepiano üçün yazılmış konsertlərdən çox, xalq çalğı alətləri üçün yazılan konsertlərin təsiri hiss olunur.

Konsertin maraqlı cəhəti istifadə olunan melodiyaların əsasən təksəsli və unison şəkildə keçməsidir. Bu bir növ xalq musiqisində rast gəldiyimiz ifa tərzini xatırladır. (Yəni məsələn dəstgah daxilində dəraməd və rənglərin ifası və s.) Demək olar ki, bütün konsert boyu melodiyaların inkişafı məhz yalnız melodik xəttin inkişafı ilə kifayətlənir və mütləq növbəti ifası orkestrdə keçir.

Mövzuların xarakteri xalq musiqisinə əsaslanır. Amma yenə bəstəkarın melodiyalarına xas olan keyfiyyət burada da özünü göstərir. Azərbaycan ladlarına əsaslanan melodiyalar çoxlu xromatik səslərlə zənginləşir. Məhz bu səbəbdən də melodiyaların lad əsasının müəyyənləşməsində müxtəlif fikirlər yaranır. Lakin buna baxmayaraq istifadə olunan ladlar tez duyulur, sadəcə bəstəkar fantaziyasının təsirinə məruz qalır ki, bu da təbiidir.

Əsərin bədii məzmununa gəldikdə burada bütöv bir xalq səhnəsi təsvir olunur. I konsertdən fərqli olaraq burada fərdin psixoloji hisslərindən çox, cəmiyyət, kollektiv mərasimlər və ümumi xalq təfəkkürü, anlayışlarına üstünlük verilir. Konsertin musiqi dili də, forması da, ifadə tərzi də məzmunu ilə bərabər yuxarıda qeyd olunanlara cavab verir. II və III hissələr daha çox özünü bu sahədə göstərir.

Bu əsər konsert repertuarlarında özünəməxsus yeri olan və populyar əsərlərdən sayılır. Öz orijinallığı ilə bu əsər pianoçuların marağını və diqqətini çəkməklə yanaşı, həm də eyni zamanda xalq çalğı alətləri orkestrinin doğma sayıla biləcək əsəri kimi qəbul olunur. Çünki burada həm fortepianonun rolu, həm də xalq çalğı alətlərinin rolu eyni dərəcədə götürülür. Ümumiyyətlə Vasif Adıgözəlovun o biri konsertlərində də olduğu kimi orkestr və fortepianonun rolu bir-birindən fərqlənmir. Yəni bəstəkar həm orkestrə, həm də fortepianoya eyni dərəcədə əhəmiyyət verir. Onlara ayrılan musiqi partiyaları da eyni dərəcədə əhəmiyyətli və bədii keyfiyyətə malikdir.

Konsertin obrazları öz lirikliyi, poetikliyi ilə insanı valeh edir. Əsas partiyanın mövzusu milli xalq təfəkkürünün məhsulu olaraq canlı və orijinal musiqi dilinə malikdir. Əsərin başlandığı əsas partiya maraq doğuran mövzulardan biridir. Belə ki, orkestrin ifasında keçən müşayiət həm musiqi materialı, həm də ritmik baxımdan dahi bəstəkar Üzeyir Hacıbəyovun «Koroğlu» operasının üvertürasının əsas partiyasının musiqi materialı ilə eynidir. Üvertüranın lad əsasını təşkil edən Şur ladı burada da üstünlük təşkil edir. Sadəcə xarakter baxımından fortepiano konserti daha lirik-dramatik xarakter daşıyır, üvertüra isə bildiyimiz kimi qəhrəmani xarakterdə yazılmışdır.

Ümumiyyətlə Şur ladı ilə bağlı maraqlı məqamlar meydana çıxır. Belə ki, bu lad özünü həm qəhrəmani, həm lirik, həm sevgi, həm də bayram əhval ruhiyyəli xarakteri yaratmaq üçün istifadə olunur. Məsələn, burada Şur ladı lirik-psixoloji xarakterli əsas partiyada, lirik-sevgi hissələrini konsertin II hissəsində olan musiqi materialında ifadə edir.

Vasif Adıgözəlovun fortepiano konsertlərində ladlardan is-



***Təməli Üzeyir Hacıbəyovla qoyulan Avropa və Azərbaycan musiqisinin sintezi prinsipi bəstəkarlıq məktəbi inkişaf etdikcə özünü müxtəlif cür təzahür etdirmişdir. Belə ki, ümumiyyətlə sintez özü hər bəstəkarın yaradıcılığında müxtəlif aspektlərdən və mənalardan yaranmışdır. Təbii ki, burada həm bəstəkarın şəxsi təfəkkürü, düşüncəsi, eyni zamanda da dövrün tələbi, dinləyici zövqü, zamanla ayaqlaşan mövzular və s. rol oynayır.***

***Bundan əlavə bu xüsusiyyətlər, yəni milli təfəkkür hər bir Azərbaycanlı sənətkarın ruhunda, qanında, düşüncəsində yaşayır, formalaşır. Bununla demək istəyirəm ki, yəni hər hansı digər bir millətin bəstəkarı Azərbaycan musiqisinin milli xüsusiyyətlərini öyrənərək Azərbaycan əsəri yarada bilməz. Buna canlı nümunə Qliyerin «Şahsənəm» operası ola bilər. Yəni kənardan, digər xalqın nümayəndəsi başqa xalq üçün milli sənət əsəri yarada bilməz. Bu, qeyri-mümkündür.***

tifadə özünəməxsus şəkildə baş verir. Belə ki, bəstəkar ladı əsasən bədii obrazı xarakterizə etmək üçün istifadə edir. Eyni zamanda burada lad bir təfəkkür tərzi olaraq da özünü göstərir. Belə ki, əvvəldə qeyd olunduğu kimi muğam ladları hər bir Azərbaycan bəstəkarının əsərində istifadə olunan və məntiqli münasibət olaraq qəbul olunur. Bu baxımdan Vasif Adıgözəlovun əsərlərində də ladlardan istifadə məntiqi olaraq qəbul olunmalıdır. Amma eyni zamanda hər bəstəkarın yaradıcılığında ladların istifadəsi özünəməxsus qaydada təzahür edir.

Vasif Adıgözəlov muğam ladlarını istifadə edərkən onların natural halına az təsadüf etmək olar. Belə ki, ladların natural səssırası daima xromatik səslərlə zənginləşir. Bu konsertdə isə laddan çox həmin ladın əsaslandığı muğamın xarakteri, ona əsaslanan obrazlar aləmi və konsertin bədii obrazları qarşılaşdırılaraq və daha dəqiq desək muğamlardan əsərdə ifadə olunan obrazları xarakterizə etmək üçün istifadə edilir.

II konsertdə muğamların istifadəsi və hətta fortepianonun partiyasında muğam parçalarının verilməsi burada ən çox da əsərə xalq çalğı alətləri üçün yazılmış əsərlərin xüsusiyyətini verir. Sanki tar və kamança üçün yazılmış konsertlərdəki kadensiya hissəsində rast gəlinən muğamlara oxşar musiqi materialını xatırladır. Lakin fərqli olaraq burada o cür kadensiya yoxdur. Amma bununla belə fortepiano konsertlərində olan kadensiyadan da istifadə edilməmişdir. Bu konsert daha çox kamera xarakterlidir. Yəni, burada kiçik bir xalq səhnəsi, hər hansı bir bayram mərasimi və ya xalq məclisi təsvir edilir. Musiqinin xarakteri də bunu düşünməyə əsas verir. Burada istifadə edilən melodik material xalq musiqisinə çox yaxın, rəqs musiqisinin elementlərini əks etdirən parçalar və s. yuxarıda dediklərimizi təsdiq etmək üçün əsas verir.

Vasif Adıgözəlov xalq musiqisinə yaxından bələd olan bir bəstəkar kimi rəqs musiqisindən də çox bəhrələnmişdir. Məsələn, III hissənin musiqi materialı demək olar ki, bütünlüklə rəqs musiqisi əsasında qurulur. Ritmik əsas tam xalq rəqslərinin, həm də tez templi və kollektiv rəqslərin təsirini bağışlayır. Amma musiqi elementləri, daha dəqiq desək refrenin musiqi materialı I hissənin əsas partiyasının variantını təşkil edir.

Belə nəticəyə gəlmək olar ki, əsərdə vahid bir obraz üstünlük təşkil edir. Bu da I hissənin əsas partiyasının mövzusudur ki, işlənmədə və reprizada yalnız bu partiya səslənir, III hissənin refreni bu musiqi materialına əsaslanır, sadəcə janrı dəyişilərək rəqs janrında təqdim edilir.

Konsertdə maraq kəsb edən elementlərdən biri də ritmdir. Əslində bəstəkar musiqi motivlərini daha çox ritm vasitəsilə variasiya edir. I hissədə bu özünü o qədər də büruzə vermir. Ona görə ki, I hissə daha çox təqdimat xarakteri daşıyır. Burada mövzular öz orijinal variantında səslənir. III hissədə isə həmin mövzular, əsasən də əsas partiyanın mövzusu ritmik variantlarla verilir. Yəni eyni melodik material rəqs xarakterli variantda verilir. Xalq rəqslərini, əsasən də ritmlərini dərindən bilən bəstəkar bunu öz əsərlərində məharətlə istifadə edir. Bu əsər buna parlaq misal ola bilər.

Konsertin I hissəsi giriş əvəzi orkestrin ifasında səslənən dörd xanəlik müşayiət və əsas partiya əsərin əsas məğzini təşkil edən mövzulardır. Müşayiət funksiyasını daşıyan bu musiqi motivi Ü.Hacıbəyovun «Koroğlu» operasından üvertüranın motivləri ilə eynilik təşkil edir. Bu bir mənada dahi bəstəkarı xatırlama kimi də mənalandırıla bilər. Həmçinin əsərin xarakteri də bu mövzunun xarakterinə cavab verir.

I hissənin əsas partiyasının ilk keçidi təksəslidir. Əvvəlki konsertdə olduğu kimi burada da təksəsli səslənmə əsasən xalq musiqisi ilə bağlılıqdan irəli gəlir. Həmçinin əvvəldə də qeyd etdiyimiz kimi məhz bu mövzu bütün konsertin leytmövzusunu təşkil edir. Mövzunun lad əsası Şurdur.

Şur ladı və muğamının elementləri bu konsertdə özünü müxtəlif xarakterdə büruzə verir. Məsələn, əsas partiyada şur ladı nisbətən lirik-dramatizm, gizli bir gərginlik yaratmaq üçün istifadə olunmuşdur. Həmçinin digər əsərlərində olduğu kimi burada da bəstəkar ladın özünəməxsus səssırasını xromatik səslərlə zənginləşdirir. Bu mövzuda da ladın səssırası belə mürəkkəbləşməyə məruz qalır.

Köməkçi partiyanın lad əsasını Humayun təşkil edir və Humayun ladının bütün xarakterini özündə əks etdirməyə nail olmuşdur. Köməkçi partiya ilk öncə solistin ifasında və orkestrin müşayiəti olmadan keçir. Bu mövzu Azərbaycan musiqisində səslənən lirik-psixoloji, hüzn və kədərin ifadəsi sayılan mövzulardan biri sayılır.

Mövzunun işlənməsi ilk öncə orkestrə həvalə olunur. Solist isə onu akkordlu passajlarla müşayiət edir. İşlənmə xarakter etibarilə daha da gərgindir. Burada unison səslənmə fa diyez və do mayəli xromatikləşmiş şur ladlarının eyni vaxtda səslənməsi ladların politonal münasibətini yaradır. Ümumiyyətlə ladlardan bu cür istifadə fortepiano konsertlərində rast gəlinən haldır.

II hissə 3 hissəli formada yazılmışdır. İlk baxışdan bu hissə də tar konsertlərində olan II hissələri xatırladır. Hətta burada olan ritmik quruluş belə bunu deməyə əsas verir.

Orkestrin ifasında başlayan yenə də müşayiət və sonra solistin ifasında başlanan mövzu xalq rəqslərini xatırladan musiqi materialı və ritm əsasına malikdir. Belə ki, burada rəqslərə, rənglərə xas 6/8 ölçü ilə 3/4 ölçünün eyni vaxtda istifadəsi nəzərdə tutulur. Bu hala biz tez-tez hərəkətli xalq mahnılarında, daha çox isə rənglərdə, rəqslərdə rast gəlirik. Ümumiyyətlə güclü hissələrin tez-tez öz yerini dəyişməsi bu vasitə ilə əldə

olunur. Belə ki, 6/8 ölcüdə ikinci güclü hissə 4-cü 8-liyə təsadüf edirsə, 3/4 ölçüdə bu 3-cü 8-liyə təsadüf edir və belə qaydada ritmik qruplaşmada rəngarənglik yaranır.

Azərbaycan xalq musiqisinin ayrılmaz hissəsi olan zəngin ritmikadan ustalıqla istifadə Vasif Adıgözəlov musiqisinə xas olan millilik prinsiplərindən ən əsası sayıla bilər. Burada xalq rəqslərinin ruhu məhz bu an daha qabarıq ifadə olunur.

Orta hissədə təqdim olunan epizod xalq şənliyini xatırladır. Burada bəstəkar Bayatı-kürd intonasiyalarına əsaslanan musiqi materialı təqdim etmişdir. Epizod mövzuların səslənmə növbələşməsinə görə maraq kəsb edir. Belə ki, burada xalq şənliyini xatırladan mövzu tək orkestrin ifasında keçir. Bu mövzudan sonra isə növbəti gələn mövzu tək solistin ifasında təqdim olunur.

Konsertin III hissəsi rondo-sonata formasında yazılmışdır – A-B-A-C-A-$B_1$-A. III hissə bütövlükdə rəqs xarakterli mövzular üzərində qurulmuşdur. Yeni mövzu yox, I hissənin əsas partiyasının mövzusuna əsaslanan və sadəcə olaraq rəqs xarakteri alan bir mövzu təşkil edir.

Vasif Adıgözəlovun bu konserti xalq musiqisilə ən yaxın əlaqəsi olan əsərlərdən biri sayıla bilər. Düzdür, onun yaratdığı mahnılar, oratoriyalar xalq musiqisindən bəhrələnən musiqi əsərləridir. Amma bununla belə onun bütün əsərlərində xalq musiqisinin qaynaqları, onu təşkil edən elementlər özünü göstərir və bu elementlər xalq musiqisini göstərmək, bildirmək məqsədilə deyil, təbii olaraq bəstəkarın daxili musiqi duyumundan və xalq musiqisilə dərindən yaxın münasibətdə olduğundan irəli gəlir. Bu da əvvəldə də qeyd olunduğu kimi onun böyüdüyü mühitin təsiri ilə əlaqəlidir.

Azərbaycan bəstəkarlığında biz əsərlərin musiqi dilini təhlil edərkən ilk öncə onun milli elementlərini nəzərdən keçiririk. Çünki, Azərbaycanda yaranan hər bir əsər mütləq şəkildə bu xalqın milli mədəniyyətinə, onun musiqisinə, lad əsasına, ən nəhayət təfəkkür tərzinə cavab verməlidir. Hətta əgər əsər proqramlıdırsa onun bədii məzmunu, əsaslandığı bədii mənbə belə xalqın mənəviyyatına əsaslanmalıdır. Bunu həm bir vətəndaş olaraq, vətənini sevən hər kəsin borcu olaraq etməsi məntiqidir.

Eyni zamanda, bu sənətkar şüurunun təbiətdən gələn nəticəsidir. Çünki sənətkar adi insanlardan fərqli olaraq zamanı qabaqlayır, onu daha dərindən anlayır və kəşf edir. Bəstəkar öz əsərində dinləyicisinə qəlbinin dərinliklərində gizlənən etirazı, sevgini, etirafı, kədəri çatdırmağa çalışır, yaratdığı obrazlarda həyat gündəliyini vərəqləyir. Onun müraciət etdiyi janrlarda belə bəstəkarın şəxsi həyatında yaşadıqları, vətəninin taleyinə münasibəti ifadə olunur.

Vasif Adıgözəlov da məhz belə sənətkardır. Əgər hal-hazırda təqdim etdiyim ikinci fortepiano konsertinə bu ampuladan baxsaq burada səslənən qəlbə yaxın melodiyalar, zəngin harmonik dil, sırf milli ritmika əsərlərin milli elementlərlə zənginliyindən xəbər verir. Lakin bəstəkarın sırf özünəməxsus milli təfəkkürə əsaslanmağı onun əsərlərinin bədii məzmununun milli psixologiyaya əsaslanmasından irəli gəlir. Yəni burada musiqinin Azərbaycan xalqının nümayəndəsinin yaratdığını göstərmək üçün milli elementlərdən təsviri vasitə olaraq istifadə yox, musiqinin məhz bu elementlərdən yoğrulduğunu göstərmək olur.

Həm də əgər bəstəkar bəsit şəkildə sadəcə olaraq bu elementləri əsərlərində istifadə etsəydi eyni zamanda müasir yazı üslubunun özəlliklərini tətbiq edə bilməzdi və yaxud bu sonradan əlavə olunmuş, kənardan yanaşmış bir proses olardı. Bu bir növ o zaman baş verə bilər ki, azərbaycanlı olmayan bir bəstəkar Azərbaycan xalq musiqi dilinə əsaslanan musiqi əsəri yaratmaq fikrinə düşər. Məsələn, XX əsrin əvvəllərində professional musiqi sənətinin yüksəlməsi və inkişafı üçün keçmiş Sovet hakimiyyətində tətbiq olunan metodun nəticəsi olaraq Qliyerin yazdığı "Şahsənəm" operası kimi.

***Vasif Adıgözəlov isə musiqiçi olmasaydı belə xalq musiqisini təfəkkür tərzinə çevirmək onun üçün çətin deyildi. Ona görə də onun yaratdığı əsərlərdə milli xüsusiyyətləri təhlil edərkən milliliyin onun üçün əslində düşüncə tərzi olduğunu qeyd etmək yerinə düşər.***

***Zöhrə ZALOVA***